**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

**«Təsdiq edirəm»:**
**Tədris məsələləri üzrə prorektor vəzifəsini**
**icra edən:________dos.Z.Məmmədov**
**"12" ____09____ 2025-ci il**

**İxtisas:** 060117 - Məktəbəqərər təlim və tərbiyənin metodika və metodologiyası
**Fakültə:** Filologiya və ibtidai təhsil
**Kafedra:** İbtidai təhsil və məktəbəqədər təlim
**I.Fənn haqqında məlumat**:
Fənnin adı: Məktəbəqədər təhsilin müasir problemləri
Kodu: MİF-B01
Tədris ili: II (2024-2025.) Semestr: III
Tədris yükü (saat) cəmi120 saat. Auditoriya saatı: 30 saat. 15 saat mühazirə, 15 saat seminar.
Tədris forması: Əyani
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 4 kredit
**II.Müəllim haqqında məlumat:** Adı, soyadı, elmi dərəcəsi və elmi adı: Baxışova Şərafət Aram qızı, **p.ü.e. d., professor**
Məsləhət gün və saatı: IV gün, 13.00-14.00
E-mail ünvanı:sharafat_baxishova1960 @ mail.ru
Kafedranın ünvanı: Lənkəran ş., H.Abdullayev küçəsi, 22, 2 saylı tədris korpusu
**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

**Əsas ədəbiyyat**


1.A.M.Nəzərov. Müasir təlim texnologiyaları.Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı-2012. 103 səh
2. MehrabovA., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. B.: Mütərcim, 2006.
3.Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000, 374 s.
4.Əliyeva Ş.Q. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı: Elm, 2010, 282 s.
5. Baxışova Ş.A.Məktəbəqədər təhsil: konseptual problemlər. Monoqrafiya. Bakı: Elm və təhsil, 2015, 308 s.
6. Mursaqulova R.N. Rüstəmova N.M. Məktəbəqədər pedaqogika. (Dərslik). Bakı-2012. ADPU-nun nəşriyyatı.
7.İlyasov M. İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri.Bakı,Təhsil və elm.2018
8.İlyasov M.İ. Müəllimin pedaqoji ustalığı. Dərs vəsaiti. Bakı, Elm və təhsil, 2013.
9.Cavadov İ.A.,L.K.Cəfərova,K.R.Məmmədova.Məktəbəqədər təhsili nyeni məzmununun xüsusiy-yətləri. Bakı:Azərbaycan RespublikasınınTəhsilProblemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, - 66 səh.


**Əlavə ədəbiyyat**

10.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası."Azərbaycan müəllimi", 2013, 25 oktyabr.
11.Veysova Z. "Fəal / interaktiv təlim. Azərbaycan Təhsil Nazirliyi-UNİSEF.
12. Azərbaycan respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu). Bakı:ARTPİ-nin Təhsil Texnologiyaları Mərkəzi,2014, 96səh.

**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisinə ehtiyac yoxdur.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Son onillikdə çox şey dəyişmişdir. Yeni paradiqmalar, konsepsiyalar, innovasiyalar, dövlət standartları və alternativ tədris planları, yeni tip məktəbəqədər təhsil müəssisələri yaradılmışdır.Məktəbəqədər təhsilin məzmununun yeniləşməsi bu gün aktual problem kimi qarşıda durur. Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, uşaqların intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini təmin edir. Ağılın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Dünyanın təhsil məkanında sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. "Məktəbəqədər təhsilin müasir problemləri" fənni gələcək kadrların peşə hazırlığına yiyələnmələrində böyük əhəmiyyət kəsb edir. Məktəbəqədər təhsilin müasir problemləri məktəbəqədər müəssisələrdə təlim, tərbiyə və təhsilin öyrədilməsi haqqında elm olmaqla, aparıcı fənn hesab edilməklə pedaqoji, psixoloji və metodik hazırlığın ana xəttini təşkil edir.

**VII.** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII.Qiymətləndirmə**: Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və ya laboratoriya dərslərində fəaliyyətinə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə, bir qayda olaraq fənn üzrə proqram materialını əhatə edən 5 sual daxil edilir. Hər sual 10 bala qədər qiymətləndirilir.

**Qiymət meyarları aşağıdakılardır:**

-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açа bilir.
-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
-6 bal- tələbənin cavabı əsasən düzgündür.
-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.
-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**Tələbə Universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim mövzu planı: Cəmi: 30 saat . Mühazirə 15 saat , seminar 15 saat.**

| № | Keçiriləcək mühazirə məşğələləri | Saat | | |
|---|---|---|---|---|
| | | Müh | Sem | Tarix |
| | **I kollokvium mövzuları** | | | |
| 1 | **Müasir dövrdə məktəbəqədər təhsilin qarşısında duran başlıca vəzifələr.**<br>**Plan:**1.Məktəbəqədər yaşlıl uşaqların tərbiyəsinin milli-mənəvi və bəşəri dəyərlər ruhunda, milli dövlətçilik və Azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılması. 2. Məktəbəqədər yaşlı uşaqların fiziki, psixi və mənəvi sağlamlığının qorunması. 3. Məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzi üzrə ilkin bilik, bacarıq və vərdişlərin formalaşdırılması.<br>**Mənbə**:1,2,3,4,5 | 2 | 2 | |
| 2. | **Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və inkişafı haqqında müasir nəzəriyyələr**<br>Plan:1. Nəzəriyyə təklif və tədqiq edilən və ümumilikdə şərh kimi qəbul edilən prinsip və ya ideyadır.2. İnkişaf nəzəriyyələri uşaqların necə öyrənməsi və inkişafına dair dərin məlumat verir. Nəzəriyyələr inkişaf prosesini anlamaq və istiqamətləndirməyə kömək edir və nəzəriyyədən qərar qəbul etmək üçün vasitə kimi istifadə edilməsi. 3.Uşaqların necə öyrənməsinə dair dörd əsas nəzəriyyə. Bu nəzəriyyələrin psixoloqlar Erik Erikson, Jan Piaje, Lev Vıqotski və Hovard Qardner tərəfindən yaradılması. Bu nəzəriyyələrin uşaqları müşahidə və onlarla işləmə təcrübəsinə əsaslanması.<br>**Mənbə**: 1,2,3,4,5 | 2 | 2 | |
| 3. | **Yeni standartlara keçiddə məktəbəqədər təhsilin aktual problemləri**<br>*Plan:*1.Məktəbəqədər təhsildə standartlar, onların xüsusiyyətləri 2.Standartların mahiyyəti, məzmunu və inteqrativliyi3. Standartların qabaqlayıcı funksiya daşıması4. Standartların strukturu və verilmə ardı- | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | cıllığı<br>**Mənbə:**1,2,4,5,6,9,10,11 | | | |
| 4. | **Erkən və məktəbəqədər yaş dövründə uşaqların hərtərəfli inkişafının pedaqoji konsepsiyası**<br>**Plan:**1.Erkən yaşlı uşaqların inkişaf xüsusiyyətləri, təhsili və tərbiyəsi 2.Məktəbəqədər yaşlı uşaqların inkişafı, təhsili və tərbiyəsi3.Məktəbəqədər uşaqlıq fenomeni: məktəbəqədər uşaqların inkişafı, təhsili və tərbiyəsi üçün pedaqoji və psixoloji şərtlər<br>**Mənbə:**1,2,3,5,6,7,9,10,11 | 2 | 2 | |
| | **II kollokvium mövzuları** | | | |
| 5. | **Müasir təhsilin paradiqmaları**<br>Plan: 1. Müasir dövrdə Azərbaycanda məktəbəqədər təhsil2. Məktəbəqədər təhsildə pedaqoji prosesin yeniləşməsi və pedaqoji nəzəriyyəyə onun təsiri 3.Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə edilməsinə yeni yanaşmalar.4.Uşaq bağçasında uşağın sosial adaptasiya səviyyəsinin müəyyənləşdirilməsi<br>**Mənbə:** 2,3,7,8,9,10,11 | 2 | 2 | |
| 6. | **Məktəbəqədər təhsildə pedaqoji innovasiyalar**<br>**Plan:**1.İnnovasiyanın mahiyyəti2.İnnovasiyaların obyektini müəyyənləşdirənproblemlər 3. Məktəbəqədər təhsildə inteqrasiya problemi. 4. Məktəbəqədər yaşlı uşaqların sosiallaşması problemi. 5. Tərbiyəçi-müəllimin fəaliyyətində innovasiyalar.<br>**Mənbə:** 1,2,3,4,5,6,7,8,9,10,11 | 2 | 2 | |
| 7. | **Uşağın məktəbə hazırlanması prosesində yeniliklər: nəzəriyyə ilə təcrübənin vəhdəti**<br>**Plan:** 1.Fiziki hazırlıq 2. Şəxsiyyətyönümlü hazırlıq 3.İntellektual hazırlıq 4.Sosial – emosional hazırlıq<br>**Mənbə:** 1,2,3,4,5,6,7,8,9 | 2 | 2 | |
| 8. | **Məktəbəqədər təhsildə valideynlərlə əməkdaşlığın yeni aspektləri**<br>**Plan:**1.Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu 2.Yetişməkdə olan uşaqların tərbiyəsində uşaq bağçasının rolu3."Məktəbəqədər təhsilin kurikulumunda" ailələrlə əməkdaşlığın təşkili məsələləri.<br>**Mənbə:** 1,2,3,4,5,6,7 | 1 | 1 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**-Magistrantlar müasir dövrdə məktəbəqədər təhsilin qarşısında duran başlıca vəzifələr ilə, müasir məktəbəqədər təhsilin yeni inkişaf istiqamətləri ilə, məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və inkişafı haqqında müasir nəzəriyyələr ilə, məktəbəqədər təhsil üzrə dünya təcrübəsini və ondan istifadə imkanları ilə, məktəbəqədər təhsilin məzmununa yeni yanaşmalar ilə tanış olacaqlar və müasir təhsilin paradiqmalarını, məktəbəqədər təhsildə pedaqoji innovasiyaları, məktəbəqədər təhsildə valideynlərlə əməkdaşlığın yeni aspektlərini biləcək, standartlara keçiddə məktəbəqədər pedaqogikanın aktual problemləri, məktəbəqədər təhsildə inteqrasiya, uşağın ailədə tərbiyəsi və cəmiyyətdə rolu, məktəbəqədər təhsil müəssisəsinin ailə ilə qarşılıqlı fəaliyyətində yeniliklər ilə tanış olacaqlar.

**XII. Fənn üzrə təlim nəticələri:**

**FTN** 1.Məktəbəqədər pedaqogikanın müasir konsepsiyalarını və yanaşmalarını izah edir, onların praktik təhsildə tətbiq imkanlarını təhlil edir.

**FTN** 2.Müasir dövrdə məktəbəqədər təhsilin qarşısında duran əsas problemləri (məzmun, metodika, kadr hazırlığı, inklüzivlik, valideynlərlə iş və s.) müəyyən edir və onların həlli yollarını əsaslandırır.

**FTN** 3.Kurikulum əsaslı yanaşmalar, təlimin məqsəd və nəticələri, fənlərarası inteqrasiya və fəaliyyət əsaslı öyrənmə modellərini təhlil edir və tətbiq edir.

**FTN** 4.Uşaqların inkişafı və təlim-tərbiyəsi ilə bağlı beynəlxalq tədqiqatlar və innovativ təhsil texnologiyaları haqqında məlumatlı olur və onları pedaqoji praktikaya inteqrasiya etmə bacarığı nümayiş etdirir.

**FTN** 5.Uşağın fərdi inkişafı, təlim ehtiyacları və şəxsiyyətinə hörmət prinsipinə əsaslanan pedaqoji yanaşmaları izah edir və nümunələrlə əsaslandırır.

**FTN** 6.Valideynlərin və cəmiyyətin məktəbəqədər təhsildə rolu, məktəbəqədər müəssisələrin sosial institut kimi funksiyaları haqqında analitik düşünmə bacarığı göstərir.

**FTN** 7.Müasir problemlərin həllində tənqidi və yaradıcı düşünmə, elmi-pedaqoji təhlil, komanda ilə işləmə və ünsiyyət bacarıqları nümayiş etdirir.

**FTN** 8.Fənn üzrə əldə etdiyi bilik və bacarıqları istifadə edərək kiçik həcmli tədqiqat işi və ya təqdimat hazırlayır və təqdim edir.

**XIII.Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV. Fənn üzrə kollokvium sualları:**

**I KOLLOKVİUM SUALLARI:**

1. Məktəbəqədər yaşlıl uşaqların Azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılması.
2. Məktəbəqədər yaşlı uşaqların fiziki, psixi və mənəvi sağlamlığının qorunması
3. Məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzi üzrə ilkin bilik, bacarıq və vərdişlərin formalaşdırılması.
4. İnkişaf nəzəriyyəsi, onun mahiyyəti
5. Uşaqların necə öyrənməsinə dair əsas nəzəriyyələr
6. Məktəbəqədər təhsildə standartlar, onların xüsusiyyətləri
7. Standartların mahiyyəti, məzmunu və inteqrativliyi
8. Standartların qabaqlayıcı funksiya daşıması
9. Standartların strukturu və verilmə ardıcıllığı
10. Erkən yaşlı uşaqların inkişaf xüsusiyyətləri, təhsili və tərbiyəsi

**II KOLLOKVİUM SUALLARI:**

1. Məktəbəqədər təhsildə pedaqoji prosesin yeniləşməsi və pedaqoji nəzəriyyəyə onun təsiri
2. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə edilməsinə yeni yanaşmalar
3. Uşaq bağçasında uşağın sosial adaptasiya səviyyəsinin müəyyənləşdirilməsi
4. Məktəbəqədər təhsildə pedaqoji innovasiyalar və onun mahiyyəti
5. İnnovasiyaların obyektini müəyyənləşdirən problemlər
6. Məktəbəqədər təhsildə inteqrasiya problemi
7. Məktəbəqədər yaşlı uşaqların sosiallaşması problemi
8. Tərbiyəçi-müəllimin fəaliyyətində innovasiyalar.
9. Uşağın məktəbə hazırlanması prosesində yeniliklər: nəzəriyyə ilə təcrübənin vəhdəti
10. Məktəbəqədər yaşlı uşaqların fiziki hazırlığı

## XV.Fənn üzrə imtahan sualları:

1. Məktəbəqədər yaşlıl uşaqların Azərbaycançılıq məfkurəsi əsasında formalaşdırılması.

2. Məktəbəqədər yaşlı uşaqların fiziki, psixi və mənəvi sağlamlığının qorunması
3. Məktəbəqədər yaşlı uşaqlarda sağlam həyat tərzi üzrə ilkin bilik, bacarıq və vərdişlərin formalaşdırılması.
4. İnkişaf nəzəriyyəsi, onun mahiyyəti
5. Uşaqların necə öyrənməsinə dair əsas nəzəriyyələr
6. Məktəbəqədər təhsildə standartlar, onların xüsusiyyətləri
7. Standartların mahiyyəti, məzmunu və inteqrativliyi
8. Standartların qabaqlayıcı funksiya daşıması
9. Standartların strukturu və verilmə ardıcıllığı
10. Erkən yaşlı uşaqların inkişaf xüsusiyyətləri, təhsili və tərbiyəsi
11. Məktəbəqədər yaşlı uşaqların inkişafı, təhsili və tərbiyəsi
12. Məktəbəqədər uşaqların inkişafı, təhsili və tərbiyəsi üçün pedaqoji və psixoloji şərtlər
13. Müasir təhsilin paradiqmaları
14. Müasir dövrdə Azərbaycanda məktəbəqədər təhsil
15. Məktəbəqədər təhsildə pedaqoji prosesin yeniləşməsi və pedaqoji nəzəriyyəyə onun təsiri
16. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin idarə edilməsinə yeni yanaşmalar
17. Uşaq bağçasında uşağın sosial adaptasiya səviyyəsinin müəyyənləşdirilməsi
18. Məktəbəqədər təhsildə pedaqoji innovasiyalar və onun mahiyyəti
19. İnnovasiyaların obyektini müəyyənləşdirən problemlər
20. Məktəbəqədər təhsildə inteqrasiya problemi
21. Məktəbəqədər yaşlı uşaqların sosiallaşması problemi
22. Tərbiyəçi-müəllimin fəaliyyətində innovasiyalar.
23. Uşağın məktəbə hazırlanması prosesində yeniliklər: nəzəriyyə ilə təcrübənin vəhdəti
24. Məktəbəqədər yaşlı uşaqların fiziki hazırlığı
25. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətyönümlü hazırlığı
26. Məktəbəqədər yaşlı uşaqların intellektual hazırlığı
27. Məktəbəqədər yaşlı uşaqların sosial – emosional hazırlığı
28. Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu
29. Yetişməkdə olan uşaqların tərbiyəsində uşaq bağçasının rolu
30. "Məktəbəqədər təhsilin kurikulumunda" ailələrlə əməkdaşlığın təşkili məsələləri.

**İbtidai təhsil və məktəbəqədər təlim kafedrasının 05 sentyabr 2025-ci il tarixli iclasında təsdiq olunmuşdur.**

**Kafedra müdiri:** **dos. A.B.Əliyev**

**Fənn müəllimi:** **prof.Ş.A.Baxışova**